



İntiqam Yaşar

## Deyərsən unutdum

Mənim əllərimdə bir əl soyuyar,
Sənin gözlərində bir baxış sönər.
Deyərsən unutdum, deyərəm unutmadın.

Mən taleyin zərbələrinə tab etdikcə,
Sən "həyat gözəldi" deyərsən... yalandan...
Deyərsən unutdum, deyərəm unutmadın.

Məni dünənlər qovurduqca sabahlar isladar,
Sən heç nə olmamış kimi xəlvətdə sızlayarsan,
Deyərsən unutdum, deyərəm unutmadın...

Hər gün səndən qalan xatirələri
oxşaya-oxşaya arxanca getdiyimdə,
Sənin qayıtdığını görərəm...
toqquşar baxışlarımız.
Deyərsən unutdum, deyərəm unutmadın...

Qarşımda bir gün illər öncənin
nurlu simasıyla sən dayanarsan,
Qarşında bir gün illər sonranın
donuq simasıyla mən dayanaram. -
Deyərsən unutdum, deyərəm unutmadın...

## Mənə sual vermə çox

Mənə sual vermə çox
ayrılığın dadından.
Hələ ayrılmamışam
ayrıldığım qadından.

Elə asan gəlməsin
sənə əlvida sözü.
Necə dediyimi də,
xatırlamıram düzü.

Təkcə sağ qolum çıxır,
soyuq alnıma yiyə.
Gecələr dörddə, beşdə
getdiyim an mürgüyə.

Pəncərə şüşələri
diş ağardır halıma.
Nə var-nə var tənhayam
Söykənmişəm qoluma.

Budur, səhər açılır,
Məktubunu aç, oxu.
Verdiyin sualların
cavabsız qaldı çoxu.

## Bir az qopaq bu səhərdən

Bir az qopaq bu səhərdən,
Bir az dönək özümüzə.
Elə qopaq, qopanda da
Düşməsinlər izimizə.

Ürək ağrısından başqa
Nə verdi bu şəhər bizə.
Gecələri yağı oldu,
Səhər güldü üzümüzə.

Saxta təbəssümlərə bax,
Vitrin-vitrin, dükan-dükan.
Çəkilən sədlər ardında
Ruhumuzdu imdad uman.

Bəlkə bir quş qanadından
Düşən lələklə gəlmişəm.
Öz xoşumla gəlməmişəm,
Hiylə-kələklə gəlmişəm.

Məni aldadan aldatdı,
Baxma qürrələnməyimə.
Neynim, gücüm çatan deyil
Qürurumu yenməyimə.

